


# XINALIQ
## SƏNƏT BEŞİYİDİR

Kübra Əliyeva
sənətşünaslıq doktoru

Xınalıq Quba rayonunun 57 km cənub-qərbində, Bakı şəhərindən isə 225 km məsafədə yerləşir. Kənd Böyük Qafqaz dağ silsiləsi ilə əhatələnmişdir. Qubadan Xınalığa gedən yol çətin və qorxulu olduğu qədər də gözəldir. Daim başı qar və buzla örtülən Böyük Qafqaz dağları bu kəndə xüsusi bir əzəmət verir.

XX əsrin əvvəllərində bu kənd inzibati ərazi bölgüsünə görə əvvəlcə Qalayxudat kəndi ilə birlikdə sovetliyin mərkəzi olmuş, əsrin ortalarında isə Quba rayonunun ərazisinə daxil edilmişdir. XX əsrin sonlarında Qalayxudat kəndi ilə bərabər, yeni yaradılan Xınalıq bələdiyyəsinin tərkib hissəsi olmuşdur. Buranın təbiəti nə bağçılıq, nə bostançılıq, nə də taxılçılıq üçün əlverişlidir. Ona görə də yerli əhali yalnız Qudyalçay boyunca az miqdarda arpa və çətənə becərir. Əhalinin əsas məşğuliyyəti heyvandarlıqdır.

Əhalinin verdiyi məlumata görə, kəndin "Xınalıq" adlanmasının onun tarixi ilə heç bir əlaqəsi yoxdur. "Xınalıq" adı kəndə XIX əsrin 50-60-cı illərindən sonra bu kəndə ətraf kəndlərin camaatı tərəfindən verilmişdir. Səbəbi isə qarşıdakı dağın günəşin şüaları altında xına rənginə bənzəməsi olmuşdur. Həmin kəndin qarşısında dağda qədim dərə yerləşir. Dərə 1000 il bundan qabaq zəlzələ zamanı yaranmışdır. Bu yeri xınalıqlılar "Pirəmıxıx" adlandırırlar.

Sakinlər Xıdır Nəbinin qəbrini müqəddəs ibadətgah kimi ziyarət edirlər. Kənddə iki məscid vardır: biri Şeyx Şalbuz, digəri isə əbu Müslim məscididir. Qəribədir ki, məscidin içərisində xınalıqlıların günahlarını yuduqları balaca bir otaq var. Təbii ki, alban dövlətinə məxsus xalqlardan biri kimi xınalıqlılar vaxtı ilə xristian olmuşlar; xristianlıqla əlaqədar olan günahyuma mərasimini də, hətta islamdan sonra belə qoruyub qədər saxlamışlar.

Bundan əlavə, "40 abbal" adlı ibadətgah vardır ki, burda 40 dərviş ibadət edirmiş. "40 abbal" pirinin yanından kəndə saxsı borularda su gəldiyi üçün bu su da, Tufandağın özü də müqəddəs hesab edilir. Kəndin 5 kilometrliyində dəniz səviyyəsindən 2600 m yüksəklikdə "Yanar dağ" adlanan dağ da bu günə qədər xınalıqlılar tərəfindən müqəddəs hesab edilir. Xınalıq xalqı buranı atəşgah kimi deyil, sadəcə, ocaq kimi ziyarət edirlər. Xınalıqlıların qədim adət-ənənənləri animizm, totemizmlə əlaqədardır. Onlar hətta indi də bəzi heyvanları totem hesab edirlər. Yağışı çağırmaq, torpağa müraciət kimi mərasimlər bu günə qədər yaşadılır. Kənd əhalisinin zərdüştiliklə əlaqədar ənənələri unudulmamışdır.

Alimlərin Xınalığın və onun ətrafındakı kəndlərin qədim yaşayış məskəni olması haqqında müxtəlif fikirləri vardır. VII əsrdə yaşamış Musa Kalankaytuklunun "Alban tarixi" kitabında Xınalıq "Xeni" adı ilə qeyd edilir. Şahdağ etnik qrupuna aid, özünün xüsusi dili, ənənə və adətləri olan bu tayfa haqqında qədim Roma tarixçisi Pleney də xəbər verir. (1)

## Xınalıq evləri

Əvvəllər bu kəndin orta əsrlərə aid olduğu yazılsa da, son dövrlərdə aparılan arxeoloji qazıntılar Xınalıq xalqının özünəməxsus orijinal dil, adət-ənənə və rəvayətlərini nəzərə alaraq Xınalıq kəndinin tarixinin ilkin tunc dövrünə aidliyi və onun yaranma tarixinin 5000 il olması haqqında mülahizələr yürütməyə əsas verir. Kəndin evlərinin konusvari layihə ilə tikilməsini səyyahlar ehramlarla müqayisə edirlər.

Xınalıqdakı evlər ümumi planına görə kənardan dağa doğru hərəkət edirmiş kimi görünüşə malikdir. Evlər bir və ya iki mərtəbəli olub, çay və ya qaya daşlarından tikilir. Tikinti işlərində gildən istifadə edilir. Burada təzəkdən də tikinti materialı kimi istifadə edilir. Belə ki, həmin təzək samanla qarışdırılır, kərpic formasında qəliblənib yay aylarında gündə qurudulur. Ötən əsrin 90-cı illərində bu məkanda tədqiqat işi aparan Gülnarə Mehmandarovanın fikrincə, Xınalıqdakı evlərin əsas hissəsi qara dam tipli və birmərtəbəlidir. Ola bilsin ki, yerli əhali qışın soyuq keçməsini nəzərə alaraq, demək olar ki, evlərdə pəncərədən istifadə etməmişlər. Pəncərələrin yerinə evlərin damında açılmış dördbucaq və ya kvadrat forma-


Xınalıq evlərinin fasaddan görünüşü

Xınalıqdan bir mənzərə


Ənənəvi Xınalıq evləri




sında olan dəlikdən istifadə etmişlər. Bu dəlik tərəkəmə alaçıqlarındakı dəliyi xatırladır. Onlar evin havasını dəyişməyə, eyni zamanda, ocağın tüstüsünün çıxmasına imkan yaradır. Qəribə burasıdır ki, bir, bəzən də ikiotaqlı evlər fasaddan birmərtəbəli kimi görünür; I mərtəbə anbar kimi istifadə olunur. Bir neçə pilləkənlə çıxaraq (kürsülü) yaşayış otağına daxil olmaq mümkündür. Vaxtilə yarımköçəri həyat tərzi keçirən, sonralar oturaq həyata keçən Azərbaycanın bir çox kəndlərində də evlər Xınalıq evlərini interyerdən təkrar edir. Gədəbəy rayonunun bir çox kəndlərindəki evləri buna misal gətirmək olar.

Qəribə burasıdır ki, bu evlərin daxili planı qədim türk evlərinin tikilmə layihəsinə çox bənzərdir. Məlum olduğu kimi, ağacdan olan qədim türk evlərinin də birinci mərtəbədə təsərrüfat hissəsi yerləşir. Belə ki, yeməyin hazırlanması üçün mətbəx girişdəki tavanı o qədər də hündür olmayan birinci qata aiddr. Əsas yaşayış otağı isə bir neçə pilləkənlə yuxarı qalxdıqdan sonra başlanır. Xınalıqda evlər, demək olar ki, bir-birinin içində tikilmiş, küçələr sayca az və dardır, evlərin demək olar ki, həyətləri yoxdur. Bir evin damı digər evin həyəti hesab olunur və əsrlər boyu xınalıqlılar bir-birinin evinə qonaq gedəndə damdan evə daxil olurmuşlar. Damdan evə daxil olmaq Uzaq Şərqdə də mövcud olmuşdur. Məsələn, yaponların çayiçmə mərasimlərinə görə, çay evinə dəvət olunan qonaqlar ya yuxarıda yerləşən yelçəkərdən, ya da pəncərədən düşməli imişlər. Xınalıqlılar əsrlər boyu öz evlərinin interyerini başdan-ayağa xalçalarla və yorğan-döşəklə bəzəyirmişlər. Son yüzilliklərdə xınalıqlılar dağın döşünə hərəkət edərək öz evlərini iki-üç otaqdan ibarət yeni üslubda tikir. Yəni belə evlərdə günəş artıq aynabənddən kiçik, ensiz dəhlizə düşür. Yataq otaqları isə gündüzlər damın dəliyindən işıqlandırılır və havalandırılır, gecələr isə həmin dəliklər hər hansı bir əşya (qazan, məcməyi) ilə kip örtülür.

Xınalıq ağsaqqalları burada əsrlər boyu yaşayan dörd tayfanın adını çəkir: "Yelqovanlar", "Mılıklilər", "Qadaxalar" və "Qəmklər"in hər birinin öz məhəlləsi olmuşdur. "Təpə məhəllə", "Çuxur məhəllə", "Yuxarı məhəllə" və "Aşağı məhəllə" adlanan həmin məhəllələrin hər birinin özünün ibadətgahı var imiş.

Xınalıqda olduğum zaman bir çox evlərdə çəkiliş apardım. Lakin ən zəngin məlumatı kənd sakini Hacıbala müəllimdən aldım. Onun kiçik evindəki şəxsi kolleksiyası böyük əhəmiyyət daşıyır.

Bərpa olunmuş evlər



## Ağacoyma

Son 50-60 il ərzində Xınalıq memarlığında ağacoyma sənəti tətbiq edilir. Daxildə pilləkənlərin üzərində və yataq otaqlarının künclərində ağac sütunlar ağacoyma sənətinin nümunələridir. Ağac sütunlar, bir qayda olaraq, üzərində dərin oymalar olan sütun başlıqları ilə tamamlanıb. Sütunların memarlıqda tətbiqi əslində evlərin damlarının möhkəmlənməsi üçün nəzərdə tutulur. Çünki birinin damı, o birinin həyəti hesab edilir. Başqa sözlə, Xınalıqdakı evlərin yastı damları iki funksiya daşıyır: örtük və qonşu evin hər gün istifadə etdiyi həyətyanı sahə.

Bu baxımdan Xınalıq muzeyində saxlanılan sütun başları özünün bədii oyma formalarına görə böyük maraq kəsb edir. Bundan əlavə, Xınalıqda ağacdan düzəldilən təknələr, yun daraqları, xalça dəzgahları da ağacdan dülgərlər tərəfindən düzəldilir.

Yerli camaat ev tikintisi, əsasən də xalçaçılıqla məşğul olur.



Xınalıqda evlər adətən çay daşından və palçıqdan tikilir

## Səbətlər

Xınalıqda səbəttoxuma sənəti geniş yayılmışdır. Qudyalçayın kənarında toplanan qamışdan, Quba yolundakı meşəliklərdən qırılan nar, zoğal çubuqlarından, çox zaman isə heyvan bağırsaqlarından məişətdə əsrlər boyu geniş tətbiq olunmuş səbətlərin toxunması üçün istifadə edilir. Apardığımız araşdırmalar göstərir ki, oturacağı kiçik, ağzı isə nisbətən gen olan şar formalı bu səbətlər, çox güman ki, yun ipləri saxlamaq üçün istifadə edilmişdir.

Həmin səbətlər uzun nar və zoğal budaqlarından bir-birinin üzərində yerləşən intensiv zolaqlar yaratmaqla düzəldilir. Üzərinə və ona sarınan cığlar isə ona naxış vurmağa imkan yaradır. Çubuqlar başdan-ayağa cığla sarınandan sonra səbət toxunur. Səbətlərin hündürlüyü 40 sm-ə, bəzən isə yarım metrə qədər olur. Bu səbətlər eyni zamanda buğda, arpa, yarma və ya düyü saxlamaq üçün də istifadə edilirmiş. Səbətlərdə tətbiq edilən üfüqi formalı qabarıq zolaqlar bəzən şaquli, bəzən isə maili istiqamətdə olur. Bu səbətlər Kolumbaqədərki Amerika hindularının öz məişətlərində istifadə etdikləri səbətlərlə qismən uyğunluq təşkil edir.

## Keramika

Keramika sənətinin inkişafı gilin kəşfi ilə əlaqədar olmuşdur. Xınalığın qədim sakinləri müxtəlif formalı badyalar, cürdəklər, yağ küpləri, un, buğda küpləri hazırlayırdılar. Qədim köçəri türk tayfaları qovrulmuş ət ehtiyatını həm heyvan qarnında, həm də küplərdə saxlayırmışlar. Xınalıqda evlərdə bu gün də küplərdən geniş istifadə edilir. Hacıbala müəllimin kolleksiyasında, eləcə də Tarix-Diyarşünaslıq muzeyində qazıntılar zamanı aşkar edilmiş sadə yonma, cızma naxışlı saxsı qablaq vardır. S-vari forma-

Burda hər daş tarixin bir səhifəsidir



Oyulmuş sütun başları





Səbət. XVIII əsrin sonları

lı naxışlar üfüqi istiqamətdə küplərin perimetri boyunca bir neçə dəfə gövdəsinə dolanaraq ona xüsusi gözəllik verir. Qeyd etmək lazımdır ki, muzeydə kurqanlardan çıxan olduqca böyük həcmli küplər də mövcuddur ki, bunlar ilk orta əsrlərdə Albaniyada şərab saxlamaq və eyni zamanda, insan öləndən sonra basdırılmaq üçün istifadə edilirmiş.

Aşsüzən də gildən ilk dəfə məhz bu zonada hazırlanmışdır. Bu hal yerli əhalinin yeməklərinin müxtəlifliyini şərtləndirir. Muzeydə Xınalıq ərazisindən tapılmış külli miqdarda küplər var. Onlar forma və istifadə yerinə görə də fərqlidir. Yağ, su, şərab saxlamaq üçün istifadə edilən küplər bir və bəzən də ikiqulpludur. Onların qulpuna yaxın yerində kiçik dəliklər mövcuddur ki, bu da mayeni tökmək üçün nəzərdə tutulub. Gildən düzəldilən süd sağmaq üçün istifadə edilən sərniclər də birqulpludur. Onların üzəri sadə naxışlarla bəzədilmişdir.

## Xalçaçılıq

Xalçaçılıq Xınalıq qadınlarının əsas sənətidir. Onlar yay aylarında qırxılmış yunları yuyub təmizləyir, sonra daraqda darayır, ardınca əlçim halına salır, sonra isə ev iyində əyirərək ip düzəldir, ətrafda olan təbii kök bitkiləri, ən çox isə ətrafda külli miqdarda mövcud olan "qızılboya" (marena) adlı boyaq bitkisinin kökündən qırmızı rəng, "sarağan" adlanan çiçəkdən də sarı rəng almaq üçün istifadə edirlər. Digər rənglər isə Qubadan Xınalığa gedən yolun üzərindəki meşə ağaclarından alınır. Məsələn, murdarça ağacından tünd-sürməyi və yaşıl rəng, palıd ağacı və qoz qabığından qara və qəhvəyi rəng almaq üçün istifadə edilir. Xınalıqlılar bərkidici kimi saxladıqları inəklərin sidiyindən istifadə edirlər.

Xınalıqda yaşayan qadın və qızların demək olar ki, hamısı həm xalça, həm də corab toxuyurlar. Hacıbala müəllimin evindəki muzeydə XVIII-XIX əsrlərə aid keramika nümunələri, misdən düzəldilmiş aftafa-ləyən, samovar, qazan kimi məişət əşyaları ilə bərabər, eyni zamanda, öz orijinallığı ilə fərqlənən xalça nümunələri də mövcuddur. Bu əşyalar içərisində Quba xalça məktəbinə aid olan xalçalarla bərabər, öz orijinallığı ilə seçilən bir neçə xalça nümunəsinə də

Məişət səbətləri. XVIII əsrin sonları



Amerika hindularına məxsus səbət







Xınalıq səbətinin qapağı. XIX əsr.



Gil qablar.

rast gəldik. Təbii ağ, qəhvəyi və qara rəngli yundan hazırlanmış iki xalçanın yerliyi ağ rəngdədir. Xalçanın birinin bəzəyini başdan-ayağa enli üfüqi zolaqlar təşkil edir. Üç üfüqi naxış zolağı ritmik olaraq şaquli istiqamətdə təkrarlanır.

Xovlu, toxunuşlu o qədər sıx olmayan xalça uzunsovdur. Lakin haşiyəsi yoxdur. Xalçada təbii qəhvəyi, açıq-qəhvəyi rəngli iplərdən əlavə, az miqdarda qırmızı rəngli iplər də tətbiq edilmişdir. Yuxarıda üçbucaq, aşağı hissəsdə isə düzbucaqlı formaya malik ağ və qəhvəyi rəngli diliklərin, bir-birinin yanına düzülüb təkrarlanması ilə formalaşan enli üfüqi zolaqlar memarlıqda qalanın bürc naxışlarını xatırladır. Qeyd etmək lazımdır ki, bu naxışlar e. ə. V əsrə aid olan Altayın 4-cü Pazırıq kurqanından tapılmış xalçanın naxışlarına da bənzəyir.

Onların mərkəzində romb formalı ağ və qırmızı rəngli həndəsi motivlər yerləşir. Bu naxışlar yuxarı və aşağı hissədən şahmat naxışları ilə əhatələnmişdir.

Digər xovlu xalça üzərindəki naxışlar da böyük maraq kəsb edir. Ağ yerlik üzərində palıd rəngli stilizə edilimiş və arxaik formaya malik qoç rəsmləri, yuxarı hissəsində üçbucaq formalı, aşağısından tökülən yağış damcılarını xatırladan rəsmlər, düzbucaqlılar içərisində yerləşən rombvari elementlərlə formalaşan üfüqi zolaqlı naxışlarla bəzənən bu arxaik nümunələr tamamilə orijinal olub, demək olar ki, Azərbaycan xalçaçılıq sənəti tarixində rast gəlinən ilk nümunələrdir. Bu xalçaların orijinallığı təbii rəngli yundan istifadə edilərək palazlara xas olan üfüqi zolaq kompozisiyası əsasında, xovlu texnika ilə toxunmasıdır. Hacıbala müəllimin kolleksiyasındakı digər iki xalça nümunəsi də öz kompozisiyası ilə diqqəti cəlb edir.

Xalçanın tam mərkəzində ağ rəngli düzbucaqlı içərisində dörd stilizə edilmiş müqəddəs həyat ağacı təsvirinin birləşməsindən əmələ gələn göl yerləşir.

Bu gölün ətrafında qara və açıq-qırmızı rəngli haşiyələr başdan-başa stilizə edilmiş ön və yan görünüşlü qoç və tovuzquşu təsvirləri ilə sıx doldurulmuşdur. Xalçanın yuxarı hissəsində ay-ulduz rəsmi yerləşir ki, bu da qədim albanların Aya və Günəşə sitayiş etmələrini göstərən əsas əlamətdir. Şəkinin Niç kəndində yerləşən, eramızın I əsrinə aid ilk xristianlıq kilsəsi də



Gil aşsüzən.
XIX əsrin əvvəlləri.

Kiçik ölçülü hana





Hacıbala müəllimin evinin qarşısında

məhz Ay məbədgahının üzərində tikilmişdir. Albanların Aya və Günəşə sitayişini Strabon da öz əsərində qeyd etmişdir.

Qeyd etmək lazımdır ki, bu hər iki xalçanın kompozisiyasını Hacıbala müəllimin həyat yoldaşı Bədəlova Şəfqət evlərində olan qədim "Xınalıq" xalçasının bəzəyindən götürmüşdür. Xalçanın yuxarı hissəsində üz-üzə dayanmış quş və heyvan təsvirləri həm forma, həm də rənginə görə dəyişmədən xalçanın enli ara haşiyəsində də təkrar edilir. Haşiyədə ağaclar şaquli istiqamətdə sıralanaraq, quşlar isə ağacın budaqlarında simmetrik olaraq təkrar edilir.

İkinci xalçanın da ara sahəsi uzunsov formalıdır, yerliyinin rəngi ağdır. Burada bir neçə elementin üfüqi istiqamətdə təkrarı ilə sıralar yaradılmışdır. Belə ki, aşağıda birinci sırada ağ yerlik üzərində sol tərəfə uzanan dəvə karvanı və oturub dincələn sarvan rəsmini aydın görmək mümkündür. Stilizə edilmiş yan görünüşlü dəvənin birinin üzərində kəcabə yerləşmişdir. Sarbanın rəsmi isə ön görünüşlüdür. Onun bir əlində dəvənin boynuna bağlanan bağ, digər əlində isə çomaq vardır. Ara sahənin düz mərkəzində hər iki tərəfində tovuzquşu olan həyat ağacları vardır. Sıra şəklində təsvir edilən dilikli buta, stilizə edilmiş quşlar, dəvə təsvirləri müqəddəs ağaca tərəf istiqamətlənmişlər. Xalçanın haşiyəsi 4 zolaqdan ibarətdir.

Xınalıq muzeyi



Xınalıqda ərişləri qoyunun təbii palıd rəngli yunundan olan palaz da diqqətimizi cəlb etdi. Palaz iki hissədən ibarətdir. Sonra ortadan əllə birləşdirilmişdir. Həm ərişi, həm də arğacı yundan olub, saçaqları dənəvər naxış formasında hörülmüşdür. Qırmızı, ağ, qara, mavi və yaşıl rəngli ensiz və enli zolaqlardan ibarət olan bu palazın kompozisiyası sadədir.

Xınalıqda bu gün də evlərdə xalçalar toxunur. Bu xalçaların əksəriyyəti Qubanın "Qırız", "Qolu-çiçi", "Qımıl" xalçalarının kompozisiyalarını təkrar edir. Orucova Minayə Bəyi qızı (1948) toxuduğu xalçada ara sahəni üç böyük rombşəkilli şaquli göllər bəzəyir. Göllərin dörd bir tərəfini orijinal formalı ağ və qırmızı rəngli, bir növ, əjdaha rəsmini xatırladan S-vari elementlər əhatə edir. Bu elementlər Qarabağın xalçalarında da mövqe tutur. Minayə xanım bu xalçanın haşiyəsini "Quran"ın üz qabığından götürülmüş kətəbə təsvirlərini elə gözəl toxuyub ərsəyə gətirmişdir ki, onlar məntiqi surətdə xalçanın ara sahəsini həm kolorit, həm də naxışına görə





Palaz. XX əsrin əvvəlləri




Xınalıq xalçası.



Xalça. Tam boyanmamış yun. XVII əsr.

tamamlayır. Digər bir xovlu xalçanı isə 90 yaşlı Zülfümar nənə toxumuşdur. Çox güman ki, Zülfümar nənə bu xalçanın təsvirini hər hansı bir rəsmdən və ya mövcud xalçadan köçürmüşdür. Lakin xalçanın kompozisiyasını usta öz istəyinə uyğun olaraq dəyişmişdir. Xalçaçı burada Türkiyədəki Süleymaniyyə camesinin fasad təsvirini xalçanın yuxarı hissəsində, onun interyerinin rəsmini isə aşağı hissədə təsvir etmişdir. İnteryerdəki sütunlar gümbəzə asılan çilçıraqları öz zövqünə uyğun olaraq qəhvəyi, açıq-sarı, mavi rənglərdə əks etdirilmişdir. Xalçadakı təbiət təsvirləri - aylı gecə açıq-mavi rəngdə, ulduzlar isə ağ rəngdə verilmişdir. Haşiyə tünd-qırmızı, tünd-sürməyi, tünd-yaşıl rənglərdə

Xalça. Ərişi və arğacı yun. XX əsrin ortaları.



toxunmuşdur. Ağ rəngli ana haşiyə üzərində Zülfümar nənə kətəbə təsvirlərini dəyişərək güldana çevirmiş, güldanda isə gül rəsmini vermişdir. Bu xalça "Namazlıq"dır. Zülfümar nənənin üzərində namaz qıldığı xalçadır. Xalçanın ölçüsü 220x135 sm, yan haşiyələri 25 sm, sıxlığı isə 40x40-dır.

Xınalıq sakini Ağayeva Mina Çoban qızının toxuduğu palaz və xovlu xalça da öz bədii xüsusiyyətlərinə görə fərqlidir. Palaz qoyunun ağ və palıdı rəngli təbii yunundan toxunmuşdur. Ərişi qəhvəyi rəngli yundandır. Üfüqi zolaqlar enli və ensiz olmaqla qəhvəyi rəngli yundan toxunmuşdur. Beləliklə, palaz sadə olduğu qədər də baxımlıdır və Mina xanımın 30 ildir ki, evinin döşəməsini bəzəyir. Palazın ölçüsü 300x200 sm-dir. Mina xalanın toxuduğu xovlu xalça nın arasahəsi sürməyi rəngdədir. Ərişləri ağ rəngli yundandır. Xalça 2005-ci ildə toxumuşdur. Toxunuşda həm təbii, həm də süni boyaqlarla boyanmış iplərdən istifadə edilmişdir. Xalçanın ara sahəsində böyük ölçülü, kənarları pilləli ,rombşəkilli böyük göl təsvir edilmişdir. Fatma xanım onun üzərində daha kiçik ölçülü, 8 guşəli həndəsi element yerləşdirmişdir. Elementin üzəri açıq-abı və tünd-sürməyi rəngdədir. Düz

Həndəsi naxışlı Xınalıq xalçası. Təbii rəngli yun





Kiçik xurcun. XX əsrin sonları.

mərkəzdə çəhrayı rəngli ikiqulplu badyanın təsviri yerləşdirilmişdir. Gölün yuxarı və aşağı hissələrində Mina xanım əsgərlikdə olan oğlunun və həyat yoldaşının obrazlarını qrafik formada təsvir etməyə çalışmışdır. Toxucudan bu kompozisiya haqqında soruşduqda o dedi ki, bu ortadakı böyük göl mənin evimin təsviridir. Badyanın təsviri ilə Tanrıdan bərəkət istəmişəm. Oğlumun və həyat yoldaşımın rəsmlərini verməklə, onları əbədiləşdirmək istəmişəm.

## Xınalıq corabları

Xalçaçılıq sənətində işlədiyim 46 il ərzində Azərbaycanın bütün bölgələrində bir-birindən fərqli olan yun corablara rast gəlmişəm. Gördüyüm corablar iki, bəzən də dörd millə toxunub, ölçülərinə, üzərində olan naxış kompozisiyalarına, rənglərinə və sıxlıqlarına görə fərqlənmişlər. Məsələn, sonuncu dəfə ən gözəl və incə corablara Lerik rayonunda rast gəlmişdim. Quba corabları isə həmişə özünün sıx toxunuşuna, üzərindəki xalça naxışlarına görə fərqlənirlər. Lakin Xınalıqda gördüyüm orijinal corabları Qarabağın ipək corabları ilə müqayisə etdim.

Məlum olduğu kimi, Azərbaycanda əsrlər boyu kənd və şəhərlərdə toxunan corablar həm materialına (yun, pambıq, ipək), həm ölçülərinə və həm də naxışlarına görə bir-birindən fərqlənir. Məsələn, qış corabları dizə qədər olub, bir qayda olaraq, çarıqla geyilərdi. Baldıra qədər corablar tuman və şalvarla geyilərdi. Ən çox isə topuğa qədər olan corablar toxunmuşdur. Xınalıq corabları üzərindəki naxışların mürəkkəbliyinə

Xalça.




Xalça. XVIII əsr.



Altaydan tapılmış xovsuz xalça fraqmenti. E.ə. V əsr.







Cecimdən tikilmiş qaşlıq. XX əsrin ortaları.



Şirvan çeşnili xurcun.

görə fərqlənir. Rəngləri al-əlvan koloriti yığcam və gözəldir. Bu corabların daban, üst, ayaq və baldıra qədər olan yuxarı hissələri çox zaman müxtəlif naxışlı olur. Məsələn, Hacıbala Bədəlovun evindəki kiçik muzeydəki corabların naxışları maraqlıdır. Qızılı, sarı, qırmızı, tünd-sürməyi rəngli koloritdə toxunmuş toy corabının üst tərəfinin naxışları ayağın ucundan yuxarıya doğru dörd bir-birinə birləşmiş rombvari həndəsi elementlə bəzənmişdir. Həndəsi elementin daxilində ana ilahəsinin təsvirini əks etdirən simvolik təsvir yerləşir. Bu simvolik element, eyni zamanda, stilizə edilmiş nülufər gülünə də bənzəyir. Bu corabın üst tərəfidə yerləşən və ritmik şəkildə təkrar olunan bu güllərin yan tərəflərində stilizə edilmiş əjdaha və ya şir təsvirinə bənzər rəsmlər də mövqe tutur. Nəzərinizə çatdırmaq istəyirəm ki, bu corabların naxışları Xınalıqda rast gəldiyimiz xalçalarda olan naxışlar kimi arxaik dövrdən qalıb və ənənəvi olaraq bu günə qədər unudulmamışdır. Ensiz haşiyə zolağı isə bir-birinə birləşib ayrılaraq ritmik şəkildə təkrar olunan S-vari elementlərlə formalaşmışdır. Bu corabın arxa hissəsi də eyni naxışlarla bəzənmişdir. Rombun içərisində qırmızı yerlik üzərində sürməyi və oxra-sarı rəngli stilizə edilmiş gül təsviri əks edilmişdir. Rombun ətrafında ensiz haşiyə qurşağı verilmişdir. Haşiyəni Qubanın və Qusarın sumaxlarının haşiyəsində tətbiq edilən S-vari elementlərin təkrarından əmələ gələn "dolanqaç" adlı naxış silsiləsi bəzəyir. Corabın yuxarı hissəsində isə yaşıl, qırmızı, abı rəngli, üfüqi zolaqlarda S-vari elementin daha mürəkkəb formasından əmələ gələn ritmik naxışlar verilmişdir. Corabın alt hissəsində isə sürməyi yerlik üzərində müqəddəs həyat ağacı rəmzi olan

Xalça. XVIII əsr.



Xurcun. XX əsrin əvvəlləri.





Xınalıq muzeyinin ekspozisiyasından görünüş.

ağac təsviri verilmişdir. Xınalıq corabları millə toxunandan sonra onun naxışlarının kənarları, yəni gəzmələri ipək sapla və iynə ilə başdan-başa gəzmələnir. İpək saplarla tikilən gəzmələr bu corablara xüsusi bir gözəllik və təravət verib, onları bənzərsiz edir. Adətən belə corablar, yuxarıda qeyd etdiyimiz kimi, təzə gəlinlər üçün nəzərdə tutulur.

Xınalıq muzeyində "valçaq" adlanan, ətəyin altından geyilən qadın şalvarları və xüsusi formada başa bağlanan "cutka" adlı baş örtükləri də nümayiş etdirilir ki, bu geyimlər Xınalıq qadınlarını digər kəndlərin qadınlarından asanlıqla ayırmağa imkan verir.



## Çarıq və patavalar

Xınalıqda bu günə qədər çarıqtoxuma sənəti yaşadılır. Təzə bəy üçün xüsusi olaraq, malın ağ rəngli aşılanmış dərisindən çarıq hazırlanır. Lakin ənənəyə görə, çarıqla mütləq patava geyilməlidir. Bu baxımdan xalçaçı ustalar bəy üçün yun iplərdən ağ rəngli patavalar toxuyurlar.

Xınalıqlıların milli geyimlərini qoyunun ağ və qara dərisindən hazırlanan papaqlar tamamlayır. Qışı sərt keçən Xınalıqda bu papaqlar xüsusilə böyük əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, bütün Azərbaycanın xalça

Kiçik cuval.





Xalça. Yun. Xovlu. 187x140. Hicri 1328/1910-cu il. Quba. Xınalıq. Azərbaycan.







Orijinal naxışlı yun corablar

toxuyan qadınları kimi, Xınalıq qadınları da qoyuna xüsusi bir diqqətlə yanaşır və onun yununu müqəddəs hesab edirlər. Bu yundan xalça, palaz, məfrəş, xurcun, çullar toxunur. Yundan toxunan corablar isə həm bədii tərtibatına, həm də ekoloji cəhətdən təmiz olmasına görə mühüm əhəmiyyət kəsb edir. Xınalıq qadınları gələn qonaqları qoyunun ağ yunundan toxunmuş və gözəl naxışlarla bəzənmiş corab hədiyyələri ilə yola salırlar. Mən də Xınalığın ağsaqqalı Hacıbala müəllimin və onun xanımının qonağı oldum. Həmin corabdan mənə də pay düşdü. Xınalıqlılar deyirlər ki, bu corablar insana sağlamlıq və xoşbəxtlik gətirir.



Çoban çarıqları

Təzə bəy üçün hazırlanan çarıq və patava nümunələri











Yeni Xınalıq

## Mənbələr:


1. Wikipedia http://ru.wikipedia.org/wiki/xinaliq
2. İ.N.Əliyev, H.S.Ağayev. Xınalıq qoruğu ərazisində aparılan arxeoloji işlər (Quba rayonu). Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu, 2012, səh. 180-185.
3. Q.K.Mehmandarova. Xınalıq, NPB Azərbaycan Ensiklopediyası, Bakı, 1998.
4. Ф. Наджи. Этот далекий и близкий Хыналыг. Журнал «Йол». Публика Этнография. 2010, № 4 (22) с. 44-56.


